**Uğura imza atanlar**

# Həkimlik ruh sənətidir



**"Ruhu sağlam olmayan həkim ona müraciət edən xəstələrlə münasibət qurub inam yarada bilməz. Mənəviyyatı sağlam olmayan həkimin fiziki cəhətdən xəstə olan adamı müalicə etmək həvəsinə düşməsi absurddur. Əsl həkim xəstəsinin ürəyini görməyi, onunla ruhən təmas qurmağı bacarmalıdır. Həkimin ruhunda, düşüncəsində özünü görməyən, doğmalığı hiss etməyən xəstənin inamı itir. Həkim-xəstə münasibətində inam, etibar olduqca çox vacibdir, çünki bu, çox dərdin dərmanıdır"...**

Gənc həkim-radioloq Şeyla Əhmədova bizimlə söhbətində həkim-xəstə münasibətləri haqqında düşüncələrini bölüşür. Şeyla xanım deyir ki, həkim xəstəsi ilə ünsiyyət yaradıb danışmağı bacarmalıdır. İlk baxış, həkimin xəstəyə il yanaşması bəzən ağır bir xəstənin həyata qayıtmasına, yaşamasına səbəb olur.

Şeyla Samir qızı Əhmədova 1989-cu il martın 19-da Bakı şəhərində anadan olub. 2006-cı ildə Respublika İncəsənət Gimnaziyasını fəqrlənmə ilə bitirib. Elə həmin il Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsinə daxil olub. Maraqlıdır ki, gimnaziyanın fortepiano şöbəsində təhsil alan Şeyla incəsənət, musiqi sahəsini deyil, həkimliyi peşə olaraq seçib.

Şeyla xanım özü bu barədə fikrini belə izah edir. Deyərdim ki, həkimlik də incəsənətin bir qoludur. Burada da yaradıcı düşüncəyə sahib olmalısan.

2012-ci ildə Tibb Universitetini fərqlənmə ilə başa vuran Şeyla Əhmədova elə həmin il təhsilini davam etdirmək məqsədilə rezidenturaya imtahan verir. Yüksək nəticə əldə edir. Bir il Təhsil Terapevtik Klinikada oxuduqdan sonra Türkiyənin Ankara şəhərində Hacettepe, Qazi, Ankara Universitetlərinin Tibb fakültəsinin radioloji anabilim şöbəsində təhsilini davam etdirir. 2017-ci ildə rezidenturanı müvəffəqiyyətlə bitirən həkim Ş.Əhmədova Respublika Talassemiya Mərkəzində işə başlayır. Ailə həyatı, üç oğlan uşağının dünyaya gəlişi bir müddət onu doğma kollektivdən ayırır. Şeyla xanım deyir ki, Tanrı xanımı yaradarkən ona dünyaya övlad gətirmək kimi müqəddəs bir funksiya verib. Şükürlər olsun ki, bu borcumu da verə bildim. İnanıram ki, oğlanlarım Ramizi, Şəmsi və Cavidanı vətənimizə, xalqımıza layiq vətəndaş kimi böyüdə biləcəyəm.

Şeyla Əhmədova 2022-ci ildən Bakı Sağlamlıq Mərkəzində radioloq həkim kimi fəaliyyət göstərir. Gənc həkim deyir ki, əhvalımdan asılı olmayaraq çalışıram ki, xəstələrimi doğmalarım kimi qarşılaya bilim. Hesab edirəm ki, başlıca vəzifəm həkim-radioloq kimi bizə müraciət edənlərin dərdlərini səhvsiz öyrənməkdir. Xəstəliyin səbəbini biləndən sonra müsbət nəticə əldə etmək asan olur. Çalışıram ki, sağlamlığını bizdə axtaranlar naümid geri dönməsinlər...

İnsanı yaşadan onun arzularıdır. Gənc həkimin ürəyi arzularla doludur. Təhsilin bütün sahələrini fərqlənmə ilə başa vuran Şeyla Əhmədovanın arzusu tibb sahəsində elmi axtarışları davam etdirmək, insanlara sağlamlıq bəxş etmək üçün daha çox həkimliyin sirlərinə vaqif olmaqdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 aprel, №71.-S.11.